ƏNVƏR ÇİNGİZOĞLU

# ŞUŞA ŞƏHƏRİ
## (1750-1850)



ƏNVƏR ÇİNGİZOĞLU

Azf-256050

# ŞUŞA ŞƏHƏRİ

## (1750-1850)

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

«Şuşa» nəşriyyatı
Bakı - 2009

Şuşa şəhərinin salınmasından bəhs edənlərdən biri də tarix-çi və şair Həsənəli ağa Xanqaradağskidir (1847-1929). Həsənəli ağa «Qarabağ vilayətinin qədim və cədid kefiyyət və övzaları, Pənah xan, İbrahim xan və Mehdiqulu xan əyyami-hökumətilərinin əksəri vəqaye və hekayətləri» adlı əsərində şəhərin quruluş tarixinə işıq salmışdır. Əsər əldə olmadığından oğlu Məhəmməd ağa Qaradağinin iqtibasından istifadə etdik. Məhəmməd ağa qələmə alır ki, Pənah xan və onun yaxınları yeni bir möhkəm qalanın binasına qərar verdilər. Bu qalanın elə bir mərkəzdə olmasını məsləhət gördülər ki, bura həm Aran, həm də dağ camaatına yaxın olsun. Belə bir məkan indiki Şuşa şəhərinin yerini tapdılar. Təbii bir qaladır ki, hər yandan hündür qayalar, əlçatmaz daşlar idi. Yalnız belə bir yerdə İran qızılbaşlarından müdafiə olunmaq mümkün idi. Şuşa qalası 1754-cü ildə (1168 hicridə) bina olunmuşdu[1].

**Şuşa şəhərindən olan yazarların bəziləri də öz doğma şəhərləri haqqında ürək sözlərini söyləmişlər.**

Görkəmli ədəbiyyatçı-alim Firudin bəy Köçərli (1863-1920) yazır: **«Şuşa qalası Zaqafqaziyanın gözəl və basəfa şəhərlərindən birisi hesab olunurdu və axır vaxtlarda artıq sürət ilə abad olmağa üz qoymuşdu. İçində çox gözəl imarətlər yapılmışdı. Yay fəslində altmış-yetmiş minə qədər nüfus bu şəhərə cəm olurdu, çünki Şuşanın abı havası xeyli saf və salamat olmağa görə yaylaq mənzələsindədir».**

Səsli yazar Əbdürrəhim bəy Haqverdiyev (1870-1933) yazır: **«Uca dağ başında, mədəniyyət mərkəzlərindən və dəmir yolundan uzaq laçın yuvasına bənzər xırdaca bir şəhər düşübdür. Dağın sağ və sol ətəklərindən köpüklənərək sürətlə axan iki çay axırda iki mehriban qardaş kimi birləşib axaraq düzlərdə yaşayan əhalinin bağlarını, əkinlərini sirab edirlər.**

**Şəhər tamam qışı və baharın yarısını qara, dumana bürünmüş keçirir; axırda bu qara çadırşəbi atıb, gözəl bir nazənin sənəm tək surətinin parıltısını aləmə salıb, tamam yay istirahəti arzusunda olan isti yerlər əhalisini öz ağuşuna cəlb edir.**

---

1 Qarabağnamələr. 2-ci kitab. Səh. 357.



**Ətrafı səfalı meşələr, sərin bulaqlar, havası məsum uşaq qəlbi tək ipək. Bu şəhərin ömrü bir elə uzun deyilsə də, tarixi bir şəhərdir. Bura xanlar, bəylər, hətta şahzadələr gəlib-gedirlər. Burda padşah başı kəsilib, təpiklərdə paymal olub. Abu-havasının şairəliyi əhalisinin təbiətinə də sirayət etdiyi üçün o şəhər məşhur şairlərin, ədiblərin, musiqişünasların, xanəndələrin mədəni olmuşdur».**

Ünlü yazar Yusif Vəzir Çəmənzəminli (1887-1943) yazır: **«Dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər təsəvvür ediniz. Bu, mənim şəhərimdir.**

**Onun tarixi çox qədim deyildir: iki əsr əvvəl Pənahxan Cavanşir və Otuziki adlı elləri ilə bu yerə gəlib, şəhər salır, ətrafına qala tikdirib oturur. Adı Pənahabad, ya Şuşa qalasıdır. Yeni xanlıq, Qarabağ xanlığı meydana çıxır. Araz çayına qədər hökmü yeriyən bu xanlıq bütün İran şahları hücumuna baxmayaraq, çar istilasına qədər müstəqil olaraq yaşayır...»**

Yazar Həsən İxva Əlizadənin (1893-1972) Şuşa şəhərinə böyük sevgisi qələmə aldığı «Şuşa şəhərinin tarixi» adlı əsərində yanqulanır. O, oxucu ilə duyğularını belə paylaşdırır: **«Şuşa! Bu ad nə qədər əziz, doğma, munis və sevimli bir ad; nə qədər dilnəvaz və mehriban bir ana-vətəndir. Şuşa o qədər gözəl bir yerdir ki, onun adı qaprşısında daima diz çökərək «xaki-payini» hörmətlə öpmək mənim ən müqəddəs vəzifəm olub. Bu şəhərin uğrunda hər bir varlıqdan: candan, maldan, həyatdan və sairədən keçmək, al qanlara bulanmaq, məhv olmaq mənim üçün ən müqəddəs bir səadət və şərəfli bir haldır». Yazar sonra doğma şəhərinin yaranma tarixinə çıraq tutur «Şuşa kəndinin altı verstliyində mənzərəli bir yerdə, hər tərəfdən sıldırım qayalarla əhatə olunub, yalnız bir tərəfdən gəlib-getmək mümkün olan yer yeni qala üçün seçildi. Qalanın yeri meşə ilə örtülü idi, yalnız az hissəsi otlaq üçün istifadə olunurdu. Pənahəli xan yeni iqamətgahının yerinə baxıb, çox bəyəndi. Xanın əmri ilə salınacaq qala-şəhərin yerini öyrənmək üçün bir heyət yaradıldı. Həmin komissiyanın qarşısında yeganə çətinlik burda suyun olmaması idi. Lakin tezliklə aydın oldu ki, burda bəzən çox dayaz yerdən su çıxır. Bir neçə yerdən quyu qazdırıb, su çıx-**